**UOT: 18**
**https://doi.org/10.30546/ifs.2025.2(45).066**

## SOKRATAQƏDƏRKİ DÖVRDƏ ESTETİK FİKRİN XÜSUSİYYƏTLƏRİ

**Nailə Əsədova**
fəlsəfə üzrə fəlsəfə doktoru
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, **Azərbaycan**
nailya_asadova@inbox.ru
https://orcid.org 0000–0002–0572–2454

**Xülasə**. Nailə Əsədovanın məqaləsinin **əsas məqsədi** – Sokrataqədərki dövrdə estetik fikrin xüsusiyyətlərinin fəlsəfi təhlilidir. Müəllif məqaləni yazarkən müqayisəli analiz metodundan istifadə etmişdir. Məqalənin elmi yeniliyi ondadır ki, burada Sokrataqədərki dövr yunan filosoflarının irəli sürdükləri estetik ideyaların Qədim Şərq mütəfəkkirləri tərəfindən irəli sürülən estetik ideyalarla müqayisəli təhlili aparılır. Tədqiqatın yekunu olaraq müəllif belə bir nəticəyə gəlmişdir ki, əgər antik estetik təfəkkürün başlıca xüsusiyyətlərindən biri onun miflə sıx bağlılığı idisə, antik estetik düşüncə tərzinin ikinci başlıca xüsusiyyəti onun kosmosentrizm prinsipinə söykənməsi idi. Kosmosentrizm prinsipinin özü isə təkcə mifin deyil, həm antik və bütövlükdə qədim fəlsəfənin ən mühüm əsaslarından birini təşkil edir.

**Açar sözlər**: Sokrataqədərki dövr, Qədim Şərq, estetik təfəkkür, kosmosentrizm, nizam, xaos, mif, harmoniya.

## ОСОБЕННОСТИ ЭСТЕТИЧЕСКОЙ МЫСЛИ В ДОСОКРАТИЧЕСКИЙ ПЕРИОД

**Наиля Асадова**

**Резюме**. Основной целью статьи Наили Асадовой является философский анализ особенностей эстетического мышления в досократический период. При написании статьи автор использовал метод сравнительного анализа. Научная новизна работы заключается в сопоставлении эстетических идей, выдвинутых досократическими греческими философами, с эстетическими концепциями мыслителей Древнего Востока. В результате исследования автор приходит к выводу, что одной из ключевых особенностей античного эстетического мышления была его тесная связь с мифом, тогда как второй важной особенностью выступала опора на принцип космоцентризма. Космоцентризм являлся одним из главных оснований не только мифологического мышления, но и всей древней философии в целом.

**Ключевые слова**: досократический период, Древний Восток, эстетическое мышление, космоцентризм, порядок, хаос, миф, гармония

## CHARACTERISTICS OF AESTHETIC THOUGHT IN THE PRE-SOCRATIC PERIOD

**Naila Asadova**

**Abstract**. The main objective of Naila Asadova's article is a philosophical analysis of the specialities of aesthetic thinking in the pre-Socratic period. When writing the article, the author used the method of the comparative analysis method. The scientific novelty of the article lies in the comparative analysis of the aesthetic ideas put forward by pre-Socratic Greek philosophers with the aesthetic ideas put forward by the thinkers of the Ancient East. As a result of the study, the author came to the conclusion that if one of the main specialities of ancient aesthetic thinking was its close connection with myth, then its second main speciality was its reliance on the principle of

cosmocentrism. The principle of cosmocentrism is one of the most important foundations not only of myth, but of all ancient philosophy as a whole.

**Keywords**: pre-Socratic period, Ancient East, aesthetic thinking, cosmocentrism, order, chaos, myth, harmony.

## Giriş

Sokrataqədərki fəlsəfə həm antik fəlsəfənin, həm də Qədim Şərq fəlsəfəsinin müəyyən hissəsini özündə ehtiva edir. Bu səbəbdən antik estetik təfəkkürü anlamaq üçün bütövlükdə qədim dünya mədəniyyətinə nəzər salmaq lazım gəlir. Qədim dunya mədəniyyəti isə öz başlanğıcını, əlbəttə ki, Qədim Misir mədəniyyətindən götürür.

Qədim Misirdə işarə-şəkillər – heroqliflərdən istifadə edilirdi. 750 heroqlif var idi. Yazı üçün papirusdan istifadə edilirdi. Misirlilər daşqın zamanı həmişə ulduzların eyni nöqtədə olduğunu müşahidə edirdilər. Qədim Misirdə musiqi və rəqs sənəti yüksək inkişaf etmişdi. Nəfəs, zərb və simli musiqi alətləri mövcud idi. Rəqqasələr bəzən döyüş səhnələrini təsvir edən pantomimlər ifa edir, məbədlərdə dini mərasimləri səhnələşdirirdilər. Qədim Misirdə allahları heyvanbaşlı insan şəklində təsvir edirdilər. Bu da ovçuluqla bağlı idi. Misirdə Amon Ra (Günəş allahı) baş allah sayılırdı. Qədim Misirdə Nut – Səma ilahəsi, Geb isə – Yer tanrısı hesab edilirdi. Qədim Misir mədəniyyətinin mühüm cizgiləri – misirlilərin özlərinin «qeyri-normallıq» hesab etdikləri «ölümə qarşı etiraz» olmuşdur. Ölməzliyə olan güclü meyil misirlilərin bütün dünyagörüşünü müəyyən etmiş, Misirin bütün dini fikrinə daxil olmuş və qədim Misir mədəniyyətini formalaşdırmışdır. Elə bu səbəbdən də Qədim Misirin ən qədim və möhtəşəm memarlıq abidələri ehramlar (piramidalar) idi. Ehramlar dünyanın 7 möcüzəsindən biridir. Misir fironları özləri üçün ehramlar tikdirmişlər. Fironlar öldükdən sonra həmin ehramlarda dəfn edilirdilər. Ehramlar yüz minlərlə nəhəng daşlardan inşa edilmişdir. Bu möhtəşəm ehramlar bir tərəfdən axirət dünyasına inam yaratmalı, digər tərəfdən isə fironların əzəmətini nümayiş etdirməli idi. Qədim Misirdə fironun sərdabəsinə o dünyada ona xidmət etmək üçün insan fiqurları qoyurdular. Ən möhtəşəm ehram e.ə. XXVII əsrdə Memfis yaxınlığında firon Xeopsun (Xufunun) şərəfinə tikilmişdir. Ehramların yaxınlığında bütöv qaya parçasından insanbaşlı, aslanbədənli nəhəng heykəl – sfinks yonulmuşdur. Bu nəhəng heykəl çox vahiməli olduğu üçün “dəhşətlər atası” adlandırılmışdır. Bəlkə də, sfinks ehramların qoruyucusu məqsədi ilə qoyulmuşdur. Misir fironları Nilin qərb sahilində Amon allahın şərəfinə inşaat işləri aparmış və onun adına məbəd tikmişlər. Burada Misirin mərkəzi şəhərlərindən olan Fiv yerləşirdi. Bu şəhər Yeni səltənət dövründə ölkənin paytaxtı mövqeyini saxlayırdı. Müasir Karnak yaxınlığında Fiv şəhərinin xarabalığı qalmışdır. III Amenxotep də Fiv şəhərində Amonun şərəfinə tikinti işləri görmüşdü. O, Amon məbədinin giriş hissəsinin hər iki tərəfindən kəsik ehram şəklində darvaza ucaltdırmışdı. Özünəməxsus xeyrat məbədlərdən birini Amona həsr etmişdi. Amon məbədinin önündəki darvaza qızılla işlənmişdi. Luksor məbədlərinin divarlarına qızıl təbəqəsi, döşəməyə isə gümüş vurulmuşdu. Məbədlərə gedən yollar lövhə ilə döşənmişdi. Amon məbədinə gedən yolun kənarında qoyun heykəlləri düzülmüşdü. Qoyun Amon məbədinin müqəddəs heyvanı hesab edilirdi. Hökmdarın xeyrat məbədi yolu kənarına itəbənzər heykəllər qoyulmuşdu. Məbədlərdə fironun əzəmətli və hündür heykəlləri də ucalırdı. Amon ümum-Misir allahı hesab olunurdu. Ona həsr olunmuş məbədlər hər yerdə inşa edilmişdi. "Günəş evi" adlanan Aton məbədi zənginliyi ilə fərqlənirdi. Həm məbədlərdə və saraylarda, həm də real həyatda estetik tələblərə son dərəcə mühüm əhəmiyyət verilirdi. IV Amenxotepin arvadı Nefertiti minilliklər ərzində gözəllik təcəssümü sayılırdı (9).

Əgər Qədim Hindistanda fəlsəfə mifoloji kosmosentrizmin dini transsendentalizm üzərində qələbə simvolu kimi formalaşmışdısa, əgər Qədim Çində fəlsəfə, əksinə olaraq, məhz transsendentalizmin ifadəçisi kimi meydana gəlmişdisə və özünü mifik kosmosentrizmə qarşı qoymuşdusa, Qədim Yunanıstanda fəlsəfə materializmin mifoloji kosmosentrizmə qarşı, praqmatik həyat tərzinin qəhrəmani həyat tərzinə qarşı müxalifət forması kimi meydana gəldi (5, s.14).

## Qədim yunan estetik fikrinin təşəkkülü

Qədim yunan fəlsəfəsinin başlanğıc məqamından fərqli olaraq, qədim yunanların mifik kosmosentrizmi səmanı canlı kainatın atası, Yeri isə anası hesab edirdi. Əgər mifologiya etik baxımdan yanaşıldıqda qəhrəmanlığı vəsf edirdisə, estetik baxımdan yanaşıldıqda insan gözəlliyini vəsf edirdi (3,

s.13). Mifologiyanın gözəlləri də, qəhrəmanları da ilahi mənşəli hesab olunurdu. Homerin *İliada*da və *Odisseya*da obrazını yaratdığı Yelena da elə ilahi gözəllik sahibi kimi təqdim olunurdu. Homerin özü qəlbinin dərinliklərində qəhrəmanlıqdan daha çox gözəlliyin tərənnümçüsü idi. Görünür, elə buna görədir ki, Homer insanların vaxtlarını mənalı keçirmələrini onda görürdü ki, bütün ariflər, mənsəb və rütbələrdən asılı olmayaraq, sıra ilə əyləşib, böyük ehtiram və diqqətlə öz müğənnilərinə, bəstəkarlarına qulaq asırlar. Yunanlar öz tarixlərinin ilkin dövründə ümumən məlum olduğu kimi, mifik dünyagörüş sahibi idilər və özlərinin mifoloji kosmosentrizmini yaradırdılar (7;8;17).

“Gözəl”, “gözəllik”, “harmoniya” kimi mühüm estetik terminlər Homerin əsərlərində yer alır (20, c.16). Lakin bu terminlər Homer tərəfindən təhlil deyil, gözəllərin vəsf olunması üçün istifadə olunurdu (16).

Antik estetik təfəkkürün birinci ən mühüm mənbəyi mif idisə, ikinci ən mühüm mənbəyi qədim yunan fəlsəfəsi idi. Amma qədim yunan fəlsəfəsi materializm olaraq yarandığından, əlbəttə ki, Homerin və bütövlükdə mifin inkarı kimi doğulmuşdu. Lakin buna baxmayaraq qədim yunan fəlsəfəsi mifi və kosmosentrizmi bu və ya digər dərəcədə özündə yaşadırdı.

Məsələn, mifik kosmosentrizmin xaosa aid etdiyi demək olar ki, bütün cəhətlər Anaksimandrın mütləqlik statusu verdiyi *arxe*də də vardır. Mifologiyanın bizə təqdim etdiyi xaos, əslində, maddiliyin daşıyıcısıdır. Anaksimandr tərəfindən arxeyə verilmiş xarakteristikada passivlik, amorfluq, qeyri-müəyyənlik əlamətləri ilə yanaşı, dünyanın bütün forma və imkanlarını öz içərisində saxlama əlaməti də yer alır (24, c.116-129). Formanın reallıqdan öncə də mövcud olduğunun qəbul edilməsi isə həm mifə, həm də estetik təfəkkürə bir işarədir.

**2. Qədim yunan fəlsəfəsində estetik fikrin başlıca simaları**

Qədim yunan fəlsəfəsində estetik fikir öz başlanğıcını Pifaqordan götürür, deyə bilərik.

Pifaqorun determinizmi bir çox hallarda materializmdən daha çox, kosmosentrizmlə çulğalaşır. Bu hal xüsusən onun estetikasında özünü göstərir: “Gözəllik – mənbəyi Allahın ixtiyarında olan bir harmoniyadır. Gözəlliyin mütləq nümunəsi, proobrazı və gözəllik hissinin mənbəyi elə kosmosun özüdür. Hərəkət edən başqa cisimlər kimi, göydəki planetlər də səs salır. Hər bir planet özünün ölçüsünə və sürətinə müvafiq olaraq səs çıxarır və bütün bunlardan *kainat musiqisi* yaranır. Bu musiqi isə insan qəlbinə və əxlaqına güclü və müsbət təsir göstərir. Musiqi insan ruhunu katarsis edir, onu qəzəb, qorxu, qısqanclıq kimi zərərli ehtiraslardan təmizləyir. Musiqi insan bədənini də azardan, naxoşluqdan təmizləyə bilir” (1, s.190-196).

Pifaqorda və pifaqorçularda estetik təfəkkür "gözəllik" anlayışı üzərində deyil, "harmoniya" anlayışı üzərində qurulmuşdu. Pifaqorçular bütün kainatın harmonik təşkilatlanması əqidəsində idilər və harmonik təşkilatlanan kainatı kosmos adlandırırdılar. Pifaqorçular belə hesab edirdilər ki, sayların harmoniyası həyatın bütün hadisələrində və o cümlədən incəsənətdə, xüsusən də musiqidə təzahür edən obyektiv bir qanunauyğunluqdur. Beləliklə, Pifaqor kainatda hökm sürən nizama və harmoniyaya diqqət yetirir. Pifaqorçulara görə, harmoniya uyğunluğu, mütənasibliyi, tərkib hissələrin bütovlüyünü nəzərdə tuturdu. Pifaqorçuların təliminin xüsusiyyəti, əslində, onların bütün fəlsəfi müddəalarının estetik xarakter daşıması ilə səciyyələnir (4, s.21;18, c.350; 22, c.86).

Pifaqorun və pifaqorçuların əbədi təkrar ideyası isə kosmosentrik ideya olaraq Heraklit (b.e.ə.530-470) tərəfindən onun Kainat haqqında təlimində inkişaf etdirildi.

Kainat Heraklitdə bəzən gurlaşıb alışan və bəzən də zəifləyib sönən əbədi və canlı odun fonunda təsvir olunur. Məhz həmin od Kainata *kosmos* xarakterini verir. Lakin bu od öz izafiliyi ucbatından *kosmos*u məhv də edə bilir, bu halda dünya alışıb-yanan nəhəng bir tonqala çevrilir. Eyni zamanda kosmik odun çatışmazlığı ucbatından, onun kifayət qədər olmaması üzündən Dünya öz gözəlliyini və əzəmətini tədricən itirir. Kosmik odun qoynunda Dünyanın alışması və sonradan sönməsi prosesləri daimi olaraq bir-birini əvəz edir. Əgər o, alışaraq bütövlükdə kosmosun məhvinə gətirib çıxarırsa, tamamilə sönərkən əvvəlcə suya, sonra isə havaya və torpağa çevrilir (11, c.275-280).

Antik estetik təfəkkür Heraklitin şəxsində həm də *loqos* anlayışı vasitəsilə mövcuddur. Yunan sözü olan *loqos* dilimizdə işlənən “söz”, “fikir”, “anlayış”, “zəka” ifadələrinə çox yaxındır. Lakin Heraklit loqosu təkcə insana aid etmir, insandan kənarda da onun obyektiv mövcudluğunu qəbul edir. *Loqos* real mövcud olmaqla yanaşı, bütün dünyanın əsasını təşkil edir. O, ən ümumidir, zəruridir və

daimidir. Heraklitdə *loqos* bütün dünyanı saran *Dünya Zəkası*dır. Antik təfəkkürün müasir səciyyələndirilməsi burada insan zəkasının kosmosa şamil edildiyini güman edir. Lakin antik təfəkkürün özü isə bunun əksinin qəbul olunmasından çıxış edirdi. İnsan dərrakəsi antik təfəkkür baxımından öz-özlüyündə zəka deyildir, həqiqi zəka dünya zəkasıdır, kosmosun ruhudur. İnsan Dünya Ruhunu yalnız öz içərisində duyduqda, Dünya Zəkasını yalnız öz içərisində dərk etdikdə onun insani ağlı həqiqiləşir, hətta ilahiləşir və zəka olur. Heraklit fəlsəfəsində və estetikasında subyektiv amil son dərəcə mühüm əhəmiyyət kəsb edir. Bununla bağlı iki xarakterik nümunəni göstərək: "Dəniz suyu həm ən təmiz və həm ən çirkin sudur, balıqlar üçün o, içməyə yarayır, onlara can verir, insanlar üçün isə içməyə yaramır, zərərdir"; və ikinci nümunə: "Meymunların ən gözəli insan nəsli ilə müqayisədə eybəcərdir". İnsan Dünya Zəkasını öz içərisində dərk etməyə nail olduğu zaman o, dünyanı da gözəl quruluşlu, gözəl harmoniya kimi qavrayır (14, s.78).

Heraklitin bizə gəlib çatan fraqmentlərindən birində belə deyilir: "Gizli harmoniya aşkardan daha yaxşıdır". Bəzi estetiklər bu fikri "gizli harmoniya aşkardan daha güclüdür" kimi başa düşürlər. Hüseyn Əlizadə bu mülahizənin mənasını belə başa düşməyi təklif edir ki, harmoniyanı yaradan əksliklər nə qədər dərində olarsa, onun estetik mahiyyəti bir o qədər güclü olar. Yəni əksliklərin ziddiyyəti daha az olar və gözə çarpmaz. Hüseyn Əlizadə bu müddəadan çıxış edərək belə bir nəticə əldə edir ki, estetik fikir tarixində ilk dəfə olaraq estetikaya dialektik ideyanın nüfuz etməsi və gözəlliyin nisbi xarakteri etiraf olundu, bu da Heraklitin adı ilə bağlıdır (4, s.22).

Dünyanın estetik qavramı ilə real dünya qavramı arasında, əlbəttə ki, ziddiyyət də mövcuddur. Dünyaya yalnız estetik qavram bucağı altında yanaşıldıqda Heraklitdə olduğu kimi, belə bir nəticəyə də gəlmək olur ki, «şairlərin söylədikləri səthi mühakimələr göstərir ki, onlar, əslində, cəhalət içərisindədirlər». Lakin şairlərin gözəl dünya barədə söylədikləri bəzən gerçəkləşə də bilir. Heraklit «ayrılanlar qovuşurlar, müxtəlifliklərdən gözəl bir harmoniya yaranır», deyir. Heraklit kosmosdan danışarkən "gözəllik" terminindən geniş istifadə etmişdir. Əgər əvvəllər "kosmos", "loqos", "harmoniya" terminləri Heraklit tərəfindən universal anlayış kimi işlədilirdisə, "gözəllik" termini isə hələlik on1ara epitet (vəsf) kimi xidmət edirdisə (məsələn: "gözəl harmoniya","gözəl kosmos" və s.), lakin sonrakı konkretləşdirmə nəticəsində "gözəllik" termini müstəqillik əldə etdi və daha geniş mənada işlədilməyə başladı, o cümlədən qiymetvermə mənasında: xoşuma gəlir, cəlb edir, həzz verir. Başqa sözlə, 'kosmosdan", yaxud "harmoniyadan" fərqli olaraq o, özündə qiymət, yəni subyekt-obyekt mənasını daşımağa başladı. Bu mənada Heraklit də pifaqorçular kimi, hesab edirdi ki, gözəlliyin obyektiv əsası vardır, lakin bu əsası o, sayların nisbətində deyil, maddi şeylərin öz xüsusiyyətində görürdü. Əgər insanlar öz münasibətlərində nizam yaratmaq istəyirlərsə, onda *Dünya Nizamı*nı qərarlaşdıran zəkaya malik olmalıdırlar. Bütün insani qanunlar vahid ilahi qanunla nizamlanmalıdırlar (1, c. 275-280).

Heraklitin *Dünya Nizamı* və *Dünya Zəkası* ilə bağlı mülahizələri Anaksaqorun şəxsində öz tarixi davamını tapa bildi. Heraklitin *loqos* haqqında təlimi kimi, Anaksaqorun *nus* haqqında təlimi də *Dünya Zəkası* mənasından çıxış edirdi. Heraklit kimi, Anaksaqor da belə hesab edirdi ki, *Dünya*, əslində, *Dünya Zəkası* ilə uyğunluq təşkil etdikdə gözəl olur.

Gözəlliyin belə bir anlamı Anaksaqorun dostu və hamisi olan ***Perikla*** sirayət etmişdi. Perikl vurğulayırdı ki, bizlərdən bir çoxumuz gözəlliyi bər-bəzəksiz, zərifliksiz sevirik. Perikl siyasi rəhbəri olduğu ölkəni, ilk növbədə isə Afinanı, daha konkret desək, Parfenonu bər-bəzəksiz, zərifliksiz gözəlləşdirmək əzmində idi. Parfenon Periklin himayəsi ilə və ***Fidi***nin rəhbərliyi altında yenidən qurulur, bər-bəzəksiz və zərifliksiz, lakin möhtəşəmliklə gözəlləşdirilirdi (10).

Antik estetik təfəkkürün başlıca prinsipi olan kosmosentrizm prinsipi Anaksimandrdan sonra ***Empedokl*** tərəfindən inkişaf etdirilir. Empedokl belə güman edirdi ki, dünyada real olaraq mövcud olan təkcə maddi başlanğıclar deyil, həm də onları bir-birinə birləşdirən və bir-birindən ayıran canlı qüvvələrdir. Empedokl bu qüvvələri *məhəbbət* və *nifrət* və ya *dostluq* və *düşmənçilik* adlandırır. Empedokl fəlsəfəsində *məhəbbət* və *nifrət* və ya *dostluq* və *düşmənçilik* təkcə insanlara xas cəhətlər olmayıb, həm də bütün kainata aid edilən xüsusiyyətlərdir. Müxtəlif elementlər bu qüvvələrin birincisi ilə birləşdirilir, ikincisi ilə isə ayrılırlar. Bu qüvvələrin hansının üstünlük təşkil etməsi ilə isə dünyəvi prosesin bu və digər mərhələsi müəyyən olunur. Məhəbbətin üstünlük təşkil etdiyi mərhələ Kainatın kamilliyi dövrünə uyğun gəlir (6. s.57). Bu zaman nifrət sıxışdırılıb Kainatdan kənara çıxardılır, dünya

*kosmos*a çevrilir, nizamlılığın və gözəlliyin təcəssümü olur. Sonradan nifrət Kainata daxil olur, onun elementlərini bir-birindən ayırır, məhəbbətin özünü isə Kainatın mərkəzinə doğru sıxışdırır, dünya *xaos*a çevrilir, nizamsızlığın və eybəcərliyin mücəssəməsi olur. Nifrətin hakimiyyəti dövründə müxtəlif mühitlərdə – suda, efirdə, quruda – yaranmış müxtəlif orqanlar məhəbbətin hakimiyyəti dövrünə keçdikcə bütöv bir orqanizm şəklində birləşirlər (21, c. 61-81).

Empedoklda kosmosentrizm materializmlə çulğalaşmışdı. Empedoklun fəlsəfəsini özünəməxsus bir şəkildə davam etdirən sofistika isə Empedokldan onun yalnız materializmini götürdü; kosmosentrizm ona əsasən yad idi. ***Sofistlər*** *Dünya Ruhu*nun mövcudluğuna inanmırdılar, dünyanı gözəlləşdirən və nizama salan varlıq haqqındakı təsəvvürləri mövhumat hesab edirdilər (6. s.58). Sofistikanın çiçəkləndiyi dövrdə həmçinin dünyəvi elmin də ontoloji əsasları hələ ki qəti olaraq müəyyənləşdirilmədiyindən sofistlər üçün, ümumiyyətlə, kosmoloji problematikaya biganəlik səciyyəvi idi. Eyni zamanda bu tarixi anda determinizmin ontoloji əsaslarından doğmalı olan qnoseoloji prinsiplər də təbii olaraq hələ ki işlənib hazırlanmamışdı. Elə buna görə də sofistika bütün insan biliklərinin nisbi xarakter daşıdığını qəbul edirdi. Hər cür biliyin nisbi xarakter daşıması haqqında sofist konsepsiyanın üç əsas müddəası Qorgiy tərəfindən verilmişdir. Onun *Mövcud olmayan Təbiət haqqında* adlı əsərində oxuyuruq: “Birincisi, heç nə mövcud deyildir, ikincisi, əgər nə isə mövcuddursa, o, insan üçün dərkedilməzdir. Üçüncüsü, əgər o, dərk olunandırsa, onu ifadə etmək mümkün deyildir” (12, c.29).

Sofistik relyativizm insanın təbiət üzərində üstünlüyünü bəyan etməklə cəmiyyətdə qərarlaşmış praqmatizm üçün məntiqi zəmin hazırlayırdı. Təbiət burada artıq insan üçün ideal ola biləcək *kosmos* deyildir, gözəllik, nizamlılıq, məntiqilik və əzəmət ölçüsü deyildir, əksinə, insan üçün faydalı ola biləcək bir şeydir. Mifologiyada kamilliyin, əbədiliyin, ədalətin təcəssümü kimi qəbul olunan tanrılar sofistikada artıq faydalılığın simvollarına çevrilirlər. ***Prodik***ə görə, qədim insanlar Günəşi, Ayı, çayları, bulaqları və onların həyatı üçün faydalı olan hər şeyi xeyir gətirdiyi üçün “tanrı” adlandırmışlar. Elə buna görə də Nul çayı misirlilər üçün tanrı idi; faydalı olduğu üçün çörək – Demetra, şərab – Dionis, su – Poseydon, od isə Hefest adlandırılmışdır (13, c.602).

Klassik antik estetikanın inkişafında *sofistlər* də böyük rol oynamışlar. Öz istedadına görə filosof, lakin peşəsinə görə böyüklərə müəllimlik edən adamları Afinada “sofist” adlandırırdılar. Sofistlər Protaqor, Qorgiy, Prodik, Hippi və başqalarının daxil olduğu fəlsəfi məktəbi təmsil edirdilər. Afinalı sofistlər arasında daha yüksək fəlsəfi ağlı ilə seçilən Protaqor (er.əv.481-411) idi. Sofistlərin əsas ideyaları məhz onun fikirlərindən törəyirdi. Sofistlər hər şeyden əvvəl əxlaq, hüquq, din məsələləri, həmçinin gözəllik və incəsənət problemləri ilə məşğul olurdular. Sofistlərin fəaliyyətini səciyyələndirən əsas cəhət onların nəticələrinin relyativi – nisbiliyi idi. Bu relyativizm (nisbilik) Protaqorun məşhur ifadəsində öz əksini tapmışdır: "İnsan bütün şeylərin ölçüsüdür". Polyak estetiki V.Tatarkeviçə görə, məhz sofistlər birinci olaraq gözəllik anlayışının özünə estetik mənada tərif vermişlər. Sofistlərə görə, "gözəllik göz və qulaq üçün xoşa gələn şeydir". Bu tərif onların etiqad etdikləri sensualizmin və hedonizmin estetik ifadəsi idi. Sofistlər ənənəvi, yəni onlara qədərki gözəllik anlayışının məhdudlaşması və məhz estetik gözəlliyin ayrılması istiqamətində gedirdilər, çünki onların verdiyi tərif əxlaqi gözəlliyə şamil edilmirdi. Güman etmək olar ki, sofistlər gözəlliyin mahiyyətinə hedonist baxışın izahını verən ilk filosoflar olmuşlar. Sofistlərin ümumi təlimindən gözəlliyə və incəsənətə hedonist baxışdan heç də az olmayan gözəlliyin və incəsənətin nisbiliyi və şərti olması fikri hasil olunurdu. Yəni, sofistlər gözəlliyin nisbi və şərti xarakter daşımasını etiraf edirdilər. Əgər onlar xeyirxahlığı və həqiqəti nisbi və şərti hesab edirdilərsə, onda təbiidir ki, onlar gözəlliyə də məhz bu nöqteyi-nəzərdən yanaşmalı idilər. Bu, onların əsas inamının "insanı bütün şeylərin ölçüsü" kimi elan edilməsinin nəticəsi idi. Onlara görə, gözəllik yalnız məkan, zaman və məqsəd şərtləri ilə əlaqədar mövcud ola bilər. Odur ki, bir münasibətdə gözəl olan şey, başqa münasibətdə eybəcər ola bilər. Bununla sofisflər gözəlliyin dialektikasını, yəni gözəlliklə onun əksinin – eybəcərliyin əlaqəsini yaratmışlar (4, s.3). Dialektik təfəkkür tərzi demək olar ki, bütün sofistlərə xas olan cəhət idi. Məsələn, Qorgiyə məxsus olan bir mühakimə də bu fikri bir daha təsdiq edir: Rəqiblərin ciddiliyini zarafatla, zarafatını isə ciddiliklə öldürmək lazımdır". Lakin bununla belə, sofistlər bəzi hallarda dialektikanı sofistikaya, əksliklərin məzmunsuz oyununa çevirirdilər. Bizə naməlum olan sofistlərdən biri gözəlliyin nisbiliyi haqqında deyir: "Həm gözəllik, həm də eybəcərlik haqqında ikili söz söylənilir. Bəziləri fərq qoyaraq təsdiq edirlər ki, gözəllik bir şeydir, eybəcərlik isə başqa, adı da [bunu tələb etdiyi] kimi; digərləri isə hesab

edirlər ki, gözəllik və eybəcərlik eyni şeydir. Mən isə aşağıdakı kimi düşünməyə cəhd edirəm... Bəzənmək, ətirli maddələr sürtmək və qızıl şeyləri asmaq kişi üçün eybəcərlikdir, qadın üçün isə gözəllik. Dostlara xeyirxahlıq etmək gözəldir, düşmənlərə isə eybəcərlik. Düşmənlərdən qaçmaq eybəcərlikdir, stadionda rəqiblərdən qaçmaq isə gözəldir. Dostları və vətəndaşları öldürmək eybəcərlikdir, düşmənləri isə gözəldir". Bütün bu misallar onu göstərir ki, gözəllik burada ənənəvi, köhnə yunan mənasında olduğu kimi başa düşülür, yəni predmetlərin təkcə zahiri görkəmini və formasını ifadə edən estetik gözəlliyi əhatə etmir və daha geniş mənada başa düşülür. Gözəllik, sofistlərin nöqteyi-nəzərincə, nəinki həmişə nisbidir, nəinki həmişə hissi ifadə olunandır, hətta o, həmişə insan şəxsiyyətini məftun edir, onun ehtiraslarının coşmasına səbəb olur (23;18;4, s.24-25).

Sofistlərin materializmini davam və inkişaf etdirən ***Demokrit*** eyni zamanda insana əşyavi münasibət fəlsəfəsinin də başlanğıcını qoydu. İnsanların təqlid yolu ilə heyvanlardan «çox mühüm şeyləri» öyrəndiyini bəyan edən Demokrit «biz toxuculuq və dərzilik sənətlərində hörümçəyin, evtikmə sənətində qaranquşların, musiqi sənətində isə nəğməkar quşların – sonaların və bülbüllərin şagirdləriyik», dedi. Lakin Demokriti idealın və estetik başlanğıcın düşməni kimi də qələmə vermək düzgün olmazdı. Belə olsaydı, Demokritin Homer poeziyası qarşısındakı heyranlığını necə izah etmək olardı?! Demokrit yazırdı ki, Homer ilahi təbiətə malik olduğundan nitqin ən gözəlini yaratmışdı. İlahi təbiətli olmadan belə gözəl və müdrik sözləri yaratmaq mümkün deyildir. Lakin gözəlliyin izahında Demokrit, əlbəttə ki, bütövlükdə materialist mövqedə dururdu. O düşünürdü ki, gözəlliyin son mahiyyəti simmetriyada, ölçüdə, hissələrin harmoniyasında, müəyyən kəmiyyət münasibətlərindədir. Sənətdəki gözəllik isə sadəcə olaraq həyatdakı gözəlliyin təqlididir (15, c. 269-271).

Demokrit incəsənət haqqında gözəlliyə nisbətən daha çox yazmışdır, o, həm də incəsənətə dair bəzi konkret tədqiqatların təməlini qoymuşdur. Demokrit təsdiq edirdi ki, "gözəl əsərlərin seyri böyük sevinc doğurur". Onun bu fikri estetika elminə məlum olan gözəllik, seyr və sevinc anlayışlarının əlaqəsini təsdiq edən fikirlərin ən qədimidir. Demokrit insanda həm mənəvi, həm də cismani gözəlliyi etiraf edirdi. Demokrit üçün "hər şeydə lazımi ölçü gözəldir". Qeyd etmək lazımdır ki, naturfəlsəfə dövrünün nailiyyətlərini ümumiləşdirən və bütün antik materializmin zirvəsi sayılan atomistik təlim hələ gözəlliyə tərif vermək səviyyəsinə yüksələ bilməmişdir. Demokrit təliminin və bütövlükdə naturfəlsəfə dövrünün bu məsələ barəsindəki təhlili göstərir ki, bu dövrdə yalnız fəlsəfi biliyin gələcək estetik aspektinin ümumfəlsəfi məntiqi əsası yetkinləşməyə başladı. Bu, "gözəlliyin" obyektiv əsasları kimi harmoniyanın, yaxud ölçünün deyil, məhz gözəlliyin qiymət anlayışı kimi yaranması ilə əlaqədar idi (4, s.3).

**Nəticə**

Antik estetik təfəkkür dedikdə başlıca olaraq Qədim Yunanıstanda və Qədim Romada formalaşan və inkişaf edən estetik düşüncə üslubu nəzərdə tutulur. Qədim Romada estetik təfəkkür Qədim Yunanıstan mədəniyyətinin təsiri altında formalaşmışdı. Qədim Yunanıstanın özünün estetik düşüncə üslubunun formalaşmasında isə Qədim Şərq mədəniyyətinin mühüm rolu olmuşdu. Bu da əlbəttə, ki, təsadüfi deyildi. Çünki antik estetik təfəkkür qədim dünya mədəniyyətinin, əslində, tərkib hissəsi idi.

**İstifadə olunmuş ədəbiyyat**

(Azərbaycan dilində)

1. Abdullazadə G. Qədim və Orta əsrlərin musiqi mədəniyyəti. Bakı, 1996.
2. Əfəndiyev A. Müdriklik səlahiyyəti. Bakı, 1976.
3. Əhmədov Ə. Estetiklik və etikliyin qarşılıqlı münasibəti. Bakı, 1997.
4. Əlizadə H. Estetika. Bakı, 2007.
5. Əsədov A. Yunan fəlsəfəsindən etüdlər. Bakı, 2007.
6. Əsədova N. Mənəvi-estetik dəyərlər: mahiyyəti, tarixi və bugünü. Bakı, QHT nəşriyyatı, 2017.
7. Homer. İliada. B., 1978.
8. Homer. Odisseya. B., 1977.
9. Huseynov İ., Əfəndiyeva N. Qədim dünya mədəniyyəti. Bakı, 2009.

http://www.anl.az/el/h/hi_qdm.pdf

10. Nəcəfov M. Fidi. B., İşıq, 1977.

(rus dilində)

11. Антология мировой философии. Т.1. М., 1969.
12. Горгий. О несуществующем, или О природе. В кн.: Маковельский А.О. Софисты. Вып. 1. Баку: 1940.
13. Зайцев А.И. Софисты. – Философский энциклопедический словарь. М., 1989.
14. История философии. М., Изд-во Академии наук СССР, 1957.
15. Кузищин В.И. Культура Греции классического периода. – В кн.: История древней Греции. М., 1969.
16. Лосев А.Ф. Гомер. М., 1960.
17. Лосев А.Ф. Греческая мифология. – В кн.; Мифы народов мира. Т. 1.
18. Лосев А.Ф. История античной эстетики. Ранняя классика. М., 1963.
19. Лосев Ф.Ф.История античной философии. М., 1989.
20. Овсянников М.Ф. История эстетической мысли. М., 1984.
21. Семушкин А.В. Эмпедокл. М., 1985.
22. Татаркевич В. Античная эстетика. М., 1977.
23. Татаркевич В. Античная эстетика. Пер. с польского. М., 1977: Лосев А.Ф. История античной эстетики. Софисты. Сократ. Платон. М., 1969. Hüseyn Əlizadə. Estetika.
24. Фрагменты ранних греческих философов. Ч.1. М., 1989.
25. Чанышев А.Н. Курс лекций по древней философии. М., 1981.

**Rəyçi: f.e.d.. prof. Adil Əsədov**